*Əl işdən soyumaz, ürək arzudan...*



# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 32-33
(7081-7082) ❁ Cümə axşamı, 25 aprel 2013-cü il ❁ Qəzet ayda 4 dəfə çıxır ❁ Qiyməti 40 qəpik



## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev «Rossiya-24» telekanalına müsahibə vermişdir.

❁ ❁ ❁

Prezident İlham Əliyev İndoneziya Parlamenti Nümayəndələr Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ məsələsinə toxunan qonaq ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirmiş, münaqişənin yalnız BMT Təhlükəsizlik Şurasının qətnamələri nəzərə alınmaqla beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu vurğulamışdır.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ dövlət katibinin demokratiya, insan hüquqları və əmək məsələləri üzrə müşaviri Tomas Melianı və ABŞ Beynəlxalq İnkişaf Agentliyi Adminstratorunun Avropa və Avrasiya üzrə müavini xanım Aleksandır Peyci qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərində davam edən uğurlu inkişafdan söhbət getmişdir.

❁ ❁ ❁

Dövlət başçısı İlham Əliyev Çexiya Respublikasının Deputatlar Palatasının sədr müavini, Çexiya-Azərbaycan dostluq qrupunun sədri Van Hamaçekin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

❁ ❁ ❁

Azərbaycan Dövlət Musiqili Teatrının binası əsaslı bərpa və yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Prezident İlham Əliyev rəsmi açılış mərasimində iştirak etmişdir.

❁ ❁ ❁

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Argentinanın və Makedoniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərini qəbul etmişdir.

**M. RƏHİMOV.**

# 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 68-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

1. 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına 700,0 (yeddi yüz) manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsinin iştirakçılarına 300,0 (üç yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu sərəncamın 1-ci hissəsinin icrası məqsədi ilə:

2.1. Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 9,0 (doqquz) milyon manat ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həmin vəsaitin Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu birdəfəlik maddi yardımın bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə çatdırılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 23 aprel 2013-cü il.*

# Bütün sahələrdə uğurlu inkişaf var

***Aprelin 25-də cari ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilmişdir. Müşavirəyə şura üzvləri, inzibati ərazi nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri, fermerlər, sahibkarlar, ictimai təşkilatların nümayəndələri dəvət almışdılar. Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev hesabat məruzəsi ilə çıxış etmişdir.***

***Müşavirədə millət vəkili, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov çıxış etmişdir.***

***Məruzə ətrafında müzakirələrdə 10 saylı Ərazi Vergilər İdarəsinin rəisi Şahismayıl Bayramov, mərkəzi xəstəxananın baş həkimi Sabir Bayramov, Qəbələ Elektrik Şəbəkəsinin rəisi Kamal Məhərrəmov çıxış etmişlər.***

***Müşavirəni RİH-nin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.***

***Aşağıda Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin məruzəsini dərc edirik.***

## *Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ*

**Hörmətli yığıncaq iştirakçıları!**

Bildiyiniz kimi aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.

İclasdakı giriş nitqində keçən ilin yekunlarının çox müsbət olduğunu qeyd edən dövlət başçısı demişdir: “Ölkə qarşısında duran bütün əsas vəzifələr icra edilir. Yəni, keçən ilin yekunları bu ilin inkişafına da möhkəm zəmin yaradıb”.

Ölkə Prezidentinin qeyd etdiyi kimi həyata keçirilən iqtisadi siyasət nəticəsində 2013-cü ilin ötən dövrü Azərbaycan iqtisadiyyatı üçün uğurlu olub. Rüb ərzində ümumi daxili məhsul 3,1 faiz artmış, qeyri-neft sektorunun inkişafı 11,4 faiz olmuşdur.

Cənab İlham Əliyev nitqində infilyasiyanın cəmi 1,2 faiz təşkil etdiyini, kənd təsərrüfatında 4 faizdən çox artım olduğunu, əhalinin pul gəlirlərinin 6 faiz artığını, regionların sosial-iqtisadi inkişafı ikinci dövlət proqramının icrası nəticəsində 1 milyon 100 mindən artıq iş yerlərinin açıldığını, onların 30 mininin bu ilin birinci rübündə yaradıldığını, nəticədə son 10 il ərzində yoxsulluğun 50 faizdən 6 faizə düşdüyünü bildirib. Bu gün dünya miqyasında rəqabət qabiliyyətinə görə Azərbaycan iqtisadiyyatının 46-cı yerdə olduğunu qeyd edən cənab İlham Əliyev hazırda ölkəmizdə iqtisadi islahatların uğurla davam etdirildiyini, həyata keçirilən islahatların gözəl nəticələr verdiyini, bu baxımdan 2013-cü ilin əvvəlki illərdən fərqləndiyini vurğulamışdır.

**(Ardı 2-ci səhifədə).**